

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin

# 2025-2028-ci illər üzrə STRATEGİYASI

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MÜNDƏRİCAT


04 **Dövlət Vergi Xidməti. Ümumi məlumat**
Dövlət Vergi Xidməti Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergilərin...

05 **Dəyərlərimiz**
Dürüstlük, Peşəkarlıq və qarşılıqlı hörmət, İnnovativlik və təşəbbüskarlıq,  Əməkdaşlıq və komanda işi...

06 **Missiyamız**
Ölkəmizin sosial-iqtisadi inkişafını təmin etmək üçün vergilərin effektivliyə və dürüstlüyə əsaslanan prinsiplərlə...

06 **Gələcəyə baxışımız**
Etibarlı və xidmət yönümlü tərəfdaş, Yüksək vergi mədəniyyətinə və könüllü əməletməyə əsaslanan vergi sistemi, İnsan mərkəzli innovativ təşkilat...

07 **Strateji fəaliyyət istiqamətlərimiz**
Güclü insan kapitalı, könüllü əməletmənin təbliği, vergidən yayınma ilə inamlı mübarizə, davamlı və dayanıqlı inkişaf...

# DÖVLƏT VERGİ XİDMƏTİ

## ÜMUMİ MƏLUMAT

Dövlət Vergi Xidməti Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, habelə qanunla və Azərbaycan Respublikası Prezidentinin aktı ilə Xidmətin səlahiyyətlərinə aid edilmiş digər icbari ödənişlərin vaxtında və tam yığılmasının təmin edilməsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

Dövlət vergi orqanları ilk dəfə öz fəaliyyətini Maliyyə Nazirliyinin tərkibində həyata keçirmişdir. 1991-ci ilin oktyabrında nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə Dövlət Vergi Xidmətinin müstəqil fəaliyyətinin təmin edilməsi məqsədilə Xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarılmış və müstəqil orqan- Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi kimi fəaliyyət göstərməyə başlamışdır. 11 fevral 2000-ci il tarixdə Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında Vergilər Nazirliyi yaradılmışdır.

23 oktyabr 2019-cu ildə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 845 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi dövlət xidməti statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilmişdir.

# DƏYƏRLƏRİMİZ

## DÜRÜSTLÜK

Dürüstlük etibar və etimad mühitinin əsasını təşkil etməklə, hər addımda ədaləti, şəffaflığı və hesabatlılığı təmin edir. Dürüstlüyün təmin edilməsi ictimai etimadı möhkəmləndirir, vergi intizamını artırır və təşkilatın cəmiyyətə xidmət öhdəliyini gücləndirir.

## PEŞƏKARLIQ VƏ QARŞILIQLI HÖRMƏT

Vergi ödəyicilərinin qanuni mənafelərinin qorunması, gender balansına, peşəkarlığa və layiqli iş mühitinin yaradılmasına hədəflənən kadr siyasəti həyata keçirməklə məsuliyyətli, peşəkar və ədalətli davranmaq əsas dəyərlərimizdən biridir.

## İNNOVATİVLİK VƏ TƏŞƏBBÜSKARLIQ

Yenilikləri sürətlə mənimsəyir, davamlı bilik və bacarıqların inkişaf etdirilməsini təmin edir, uğurlu nəticələrə nail olmaq üçün təşəbbüs göstərərək fəaliyyətimizdə innovativ və yanaşmanı tətbiq edirik.

## ƏMƏKDAŞLIQ VƏ KOMANDA İŞİ

Qoyulan məqsədlərə çatmaq üçün istər təşkilatımız daxilində, istərsə digər dövlət orqanları ilə koordinasiyalı işin təşkilini həyata keçiririk. Vergi ödəyicilərinin fikir və rəylərinə dəyər verir, onların vergi inzibatçılığında inklüziv və ədalətli iştirakının təmin edilməsini rəhbər tuturuq.

# MİSSİYAMIZ

VERGİLƏRİN EFFEKTİV VƏ DÜRÜST QAYDADA TAM VƏ VAXTINDA YIĞILMASI, KÖLGƏ İQTİSADİYYATI İLƏ MÜBARİZƏ APARMAQLA HAQLI RƏQABƏTİN TƏMİN EDİLMƏSİ

# GƏLƏCƏYƏ BAXIŞIMIZ

İNSAN MƏRKƏZLİ VƏ İNNOVATİV XİDMƏTLƏRLƏ KÖNÜLLÜ ƏMƏLETMƏNİ SADƏ VƏ ƏLÇATAN EDƏN ETİBARLI TƏRƏFDAŞ OLMAQ

### İnsan mərkəzli innovativ təşkilat

Müasir çağırışlara uyğun olaraq ən qabaqcıl texnoloji həllərin və iş təcrübələrinin tətbiqini həyata keçirməyə səy göstəririk. Bu yanaşmamız əməkdaşlarımız üçün peşəkar, dinamik və layiqli iş şəraitinin, həmçinin dövlətin və cəmiyyətin maraqlarını təmin etməyə yönəlmiş təşkilati strukturun və təşkilati mədəniyyətin qurulmasına gətirib çıxaracaqdır.

### Yüksək vergi mədəniyyətinə və könüllü əməletməyə əsaslanan vergi sistemi

Könüllü vergi əməletməsinin asan və əlçatan, vergidən yayınmanın isə ciddi şəkildə qarşısının alındığı, yüksək vergi mədəniyyətinin sosial normaya çevriləcəyi bir ekosistemin bərqərar olması üçün çalışırıq. Vergi ödəyicilərinə risk əsaslı yanaşmanın tətbiqi dövlət resurslarından qənaətlə istifadəni, zəruri olan xidmətlərin ünvanına çatmasını, vergidən yayınma ilə preventiv mübarizəni təmin edəcəkdir.

### Etibarlı və xidmət yönümlü tərəfdaş

Məqsədimiz şəffaflığı, hesabatlılığı, dəyərlərimizi, habelə ən yaxşı beynəlxalq təcrübə və standartları tətbiq edərək vergi ödəyiciləri, dövlət orqanları və bütövlükdə cəmiyyətimiz üçün nümunəvi tərəfdaşa çevrilməkdir. Ən böyük tərəfdaşımız olan vergi ödəyicilərinin daha keyfiyyətli əlçatan və innovativ xidmətlərlə əhatə edilməsini hədəfləyirik.

# STRATEJİ FƏALİYYƏT İSTİQAMƏTLƏRİMİZ

1

## Güclü insan kapitalı

İnsan kapitalı hər bir təşkilatın uğurunun təməl daşıdır. Əməkdaşlarımızın inkişafına və rifahına sərmayə qoymaq, çağırışlara uyğunlaşa bilən və strateji hədəflərə nail olan gender bərabərliyinin təmin olunduğu motivasiyalı bir heyət olmağı hədəfləyirik.

2

## Könüllü əməletmənin təbliği

Şəffaflıq, maarifləndirmə və stimullaşdırma yolu ilə könüllü əməletmənin təmin edilməsi vergi daxilolmalarının dayanıqlılığının, vergi orqanı və vergi ödəyicisi arasında etimad mühitinin  yaradılmasında mühüm əhəmiyyətə malikdir.

3

## Vergidən yayınma ilə inamlı mübarizə

Vergidən yayınma ilə effektiv mübarizə vergi sistemində ədalətin və haqlı rəqabətin təminatdır. Bu tədbirlər vergi intizamını artırır, qanunsuz fəaliyyətlərin qarşısını alır və beləliklə ölkənin iqtisadi sabitliyinə və inkişafına töhfə verir.

4

## Davamlı və dayanıqlı inkişaf

Vergi orqanlarının davamlı və dayanıqlı inkişafı dinamik iqtisadi mühitin dəyişən reallıqlarına uyğunlaşmaq, vergi ödəyicilərinin tələblərini qarşılamaq, ədalətli və effektiv vergi yığımını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. İnnovasiyaların tətbiqi yolu ilə səmərəliliyin artırılması, məlumatların qorunması, ölkə daxili və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi yolu ilə biz ölkənin inkişafına dəstək verə və ictimai etimadı qoruya bilərik.

# 1 GÜCLÜ İNSAN KAPİTALI



Ölkəmizdəki vergi ekosistemini səmərəli idarə etmək və dövlət büdcəsinin gəlirlərini formalaşdırmaq təkcə möhkəm institusional çərçivələrdən və texnoloji həllərdən deyil, həm də insan kapitalının gücü və imkanlarından asılıdır. İqtisadi mənzərə getdikcə mürəkkəbləşdikcə və qloballaşdıqca, vergi inzibatçılığı daxilində təcrübəli, dinamik və müasir çağırışlara uyğunlaşa bilən işçi qüvvəsinə ehtiyac daha da prioritet olur. İnsan kapitalının gücləndirilməsi üzrə inkişaf strategiyası təkcə bacarıqlı və bilikli deyil, həm də motivasiya edilmiş və təşkilatın məqsədlərinə uyğun işçi qüvvəsinin hazırlanması üçün nəzərdə tutulub.

Dövlət Vergi Xidməti davamlı öyrənmə və inkişafa, aydın karyera yollarına, innovasiya və əməkdaşlığı təşviq edən müsbət iş mühitinin yaradılmasına diqqət yetirir. Hesab edirik ki, bu cür kollektivdə gender bərabərliyinin də təşviqi daha inklüziv iş mühiti yaratmaqla vergi orqanının əsas prinsipləri olan ədalət və bərabərliyin bərqərar olmasına xidmət edəcəkdir. Nəticədə biz dürüstlük üzərində qurulmuş, milli və etik dəyərlərə sadiq təşkilati mədəniyyətin formalaşdırılmasına nail olacağıq.

Bu təşəbbüslər vasitəsilə Xidmət ölkənin iqtisadi dayanıqlığına və inkişafına töhfə verərək dövlət qulluğunda nümunəvi orqanlardan biri olmağa çalışır. Bu strateji istiqamət üzrə 3 hədəfin icrası nəzərdə tutulur:

- İstedadlı kadrların cəlb olunması və onların peşəkar inkişafının təmin edilməsi, gender amilləri nəzərə alınmaqla inklüziv iş mühitinin yaradılması;
- Peşəkarlığa və nəticəyönümlülüyə əsaslanan ədalətli və şəffaf həvəsləndirmə sisteminin qurulması;
- Qəbul olunmuş standartlara və müasir çağırışlara cavab verən strukturun qurulması.

# 2 KÖNÜLLÜ ƏMƏLETMƏNİN TƏBLİĞİ

Könüllü əməletmənin yüksəldilməsi vergi nəzarətinin inzibati resurslarına qənaət edilməsinə, vergi ödəyicilərində vergi mədəniyyətinin yüksəldilməsinə, habelə büdcə gəlirlərinin davamlılığına və dayanıqlılığına xidmət edir.

Vergi ödəyicilərinə göstərilən xidmət keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vergi ödəyicilərinin hesabatlılıq üzrə iş yükünün sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə inzibatçılığın təkmilləşdirilməsi, o cümlədən rəqəmsallaşması ilə çeviklik təmin ediləcək. Dövlət Vergi Xidməti vergi ödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə elektron xidmətlərlə yanaşı, vergi nəzarəti proseslərinin də avtomatlaşdırılması üzərində işləyir. Texnologiyalar vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsini yüksəltmə sisteminin əsası olduğundan, bu, cəmiyyət və dövlət arasında qarşılıqlı etimadı və vətəndaş məmnunluğunu artırmağa, iqtisadiyyatın şəffaflığını təmin etməyə xidmət edir.

Bu istiqamət üzrə 4 hədəfin icrası nəzərdə tutulur:

- Vergi yükünün ədalətliliyi, digər icbari ödənişlər sistemində fiskal yükün balanslı olması, vergi dərəcələrinin optimallaşdırılması;
- Vergi ödəyicilərinin maarifləndirilməsi və cəmiyyətdə vergi mədəniyyətinin artırılması;
- Müştəriyönümlü vergi siyasətinin və sahibkarların hüquqlarının təmin olunması;
- Keyfiyyətli məlumat bazasının formalaşdırılması, effektiv inzibatçılığın həyata keçirilməsində rəqəmsal transformasiyanın imkanlarından geniş istifadə olunması.

# 3 VERGİDƏN YAYINMA İLƏ İNAMLI MÜBARİZƏ



Vergidən yayınma ilə mübarizə tədbirlərinin maksimal dərəcədə ünvanlı olmasını təmin etmək üçün Dövlət Vergi Xidməti "vergi ödəyicisini tanı" yanaşmasını tətbiq etməyi hədəfləyir. Qeydiyyatdan keçdiyi andan başlayaraq bütün fəaliyyəti dövründə vergi ödəyiciləri haqqında məlumatlı olmaq, onların aid olduğu risk kateqoriyalarını dəqiq müəyyən etməyi ehtiva edən bu yanaşma vergi hüquqpozmalarının preventiv qaydada qarşısını almağa imkan verməklə yanaşı, könüllü əməletmə yolunu seçən vergi ödəyicilərinə dəstək verən yanaşmanı tətbiq etməyə imkan verəcəkdir.

Vergi orqanı ilə digər dövlət qurumları arasında əməkdaşlıq ətraflı məlumat mübadiləsinə və nəzarət qaydalarının daha effektiv icrasına imkan verir. Bu əməkdaşlıq və məlumat mübadiləsi riskli vergi ödəyicilərinin qeyri-qanuni maliyyə fəaliyyətlərini izləməyə və aşkar etməyə, idxal və ixrac əməliyyatlarında qaçaqmalçılığın qarşısını almağa, məşğulluq, əməkhaqqı barədə hesabatları izləməyə, vergidən yayınma və çirkli pulların yuyulması kimi vergi ilə bağlı cinayətləri aşkar etməyə, potensial vergidən yayınma sxemlərinin müəyyən etməyə istiqamətlənib.

Bu strateji istiqamət üzrə 5 hədəfin icrası nəzərdə tutulur:

- Şəffaf uçot sisteminin təmin edilməsi;
- Təkmil risk təhlil alətləri və risk əsaslı yanaşma ilə vergidən yayınmanın qarşısının alınması;
- Hüquqpozmalar ilə preventiv qaydada mübarizə;
- Vergi cinayətlərinin effektiv istintaqı;
- Vergi borclarının effektiv yığılması.

# 4 DAVAMLI VƏ DAYANIQLI İNKİŞAF

Vahid strateji dövlət hədəfləri ilə bağlı qarşımıza qoyulan vəzifələrin icrasını təmin etmək üçün təşkilatımızın davamlı və dayanıqlı inkişafı təmin edilməlidir. Gələcəyə yönəlmiş vergi orqanı iqtisadi inkişafı dəstəkləmək, ictimai etimadı gücləndirmək və könüllü vergi əməletməsini təşviq etməkdə mühüm rol oynayır.

İnnovasiya vergi administrasiyasının davamlı inkişafının əsas sütunlarından biridir. Məlumat analitikası, süni intellekt və avtomatlaşdırma kimi qabaqcıl texnologiyaların tətbiqi prosesləri optimallaşdırır, insan səhvlərini azaldır və qərar qəbuletmə prosesini təkmilləşdirir. Bu innovasiyalar vergi orqanlarına mürəkkəb tapşırıqları həll etmək, uyğunsuzluqları vaxtında aşkar etmək və vergi ödəyicilərinə eyni keyfiyyətlə xidmətlər təqdim etmək imkanı yaradır. Davamlı təkmilləşdirməyə yönəlmiş innovasiya mədəniyyəti iqtisadi və texnoloji dəyişikliklər qarşısında da dayanıqlığı təmin edir. Bununla yanaşı vergi və kommersiya sirri təşkil edən məlumatlarının təhlükəsizliyi vergi orqanının baxışının və hədəf strategiyasının əsas komponentidir. Rəqəmsal təhdidlərin və kiberhücumların sayının artması ilə əlaqədar olaraq informasiya təhlükəsizliyinin təmin edilməsi getdikcə daha vacib və vergi orqanları üçün prioritet məsələyə çevrilir.

Dövlət Vergi Xidməti digər dövlət qurumları ilə onların məsul olduqları tədbirlərin icrasında qarşılıqlı əlaqədə işləyir və onların fəaliyyətinə dəstək olur. İstər “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulmuş tapşırıqların icrasından, istərsə də Xidmətin fəaliyyət istiqamətlərindən irəli gələrək aidiyyəti dövlət orqanları ilə birgə əməkdaşlıq həyata keçirilir. Bu, özünü gömrük siyasətinin həyata keçirilməsində, istehlakçıların və sahibkarların hüquqlarının qorunmasında, rəqabət mühitinin tənzimlənməsində, qiymət intizamına riayət edilməsində göstərir.

Bundan əlavə, beynəlxalq təşkilatlarla əlaqələr qlobal ən yaxşı təcrübələri mənimsəmək və beynəlxalq vergi standartlarına uyğunluğu qorumaq üçün vacibdir. Bir çox mötəbər regional və qlobal qurumların tövsiyələri nəzərə alınmaqla xarici ölkələrdəki ən mütərəqqi təcrübələrin milli vergi sisteminə tətbiqi imkanlarının qiymətləndirilməsi və eləcə də mövcud qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılması yeni təcrübə və yanaşmalar tələb edərək reallaşdırılması qaçılmaz olan hədəf istiqamətinin icrasını zəruri edir. Ölkənin beynəlxalq reytinqlərdə mövqeyinin yüksəldilməsində vergi orqanının rolunun artırılması, vergi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və bu təcrübənin milli vergi sisteminə uyğunlaşdırmaqla tətbiqi imkanlarının araşdırılması, vergi əməletməsinin artırılması istiqamətində beynəlxalq vergitutma prinsiplərinin qiymətləndirilməsi əsas diqqət mərkəzimizdə olacaq hədəf istiqamətlərdəndir.

Bu strateji istiqamət üzrə 4 hədəfin icrası nəzərdə tutulur:

- Müasir vergi inzibatçılığının təmin edilməsi üçün dayanıqlı, fasiləsiz və təhlükəsiz informasiya texnologiyaları mühitinin təmin edilməsi;
- Regional və beynəlxalq təcrübə mübadiləsinin, o cümlədən beynəlxalq vergi sazişlərinin əhatə dairəsinin genişləndirilməsi;
- İqlim dəyişmələri ilə mübarizə sahəsində ölkə tərəfindən götürülmüş öhdəliklərin icrası istiqamətində dəstək göstərmək;
- İqtisadiyyat Nazirliyi və digər dövlət qurumları ilə onların məsul olduqları tədbirlərin icrasında qarşılıqlı əlaqəni və effektiv koordinasiyanı möhkəmləndirmək, sosial-iqtisadi inkişaf üçün vergi siyasətinin formalaşdırılmasında aktiv rol almaq.